FUNKSİONAL-SEMANTİK İNKARLIQ SAHƏSİNİN ŞAQULİ STRUKTURUNUN XÜSUSİYYƏTLƏRİ

Fərqanə HÜSEYNOVA*

Xülasə: Bu məqalə inkarlıq məsələsini. müasir ingilis dilində semantik-funksional inkarlıq sahəsinin şaquli strukturunun əsas xüsusiyyətlərini araşdırmağa həsr olunub. Daha sonra təsdiq və inkarlıq arasında birbaşa əlaqənin olması izah olunmağa davam edilib və onlar arasinda sınmaz körpünün olduğu və buna görə onların birinin mövcudluğu olmadan digərinində mövcudluğunun mümkünsüz olduğu göstərilib.Bir tərəfdən semanyik-funksional inkarlığın şaquli strukturunun çoxlu elementleri olduğu göstərilib.Digər tətəfdən də bu elementlər hər tərəfli müqayisə olunub və onlar arasındakı fərqli və oxşar cəhətlər aşkar olunub.Müasir ingilis dilində inkarlıq sahəsində not ədadtının aparıcı və dominant rolu xüsusilə vurğulanıb.Məqalәd funksional semantik inkarlıq vasitələri faktiki materiallar əsasında dərindən araşdırılıb və hərtərəfli izah olunub.İnkarlıq kateqoriyasının həm fəlsəfi, həm də qrammatik kateqoriya olması ancaq onun inkarlıq kateqoriyasi olaraq reallaşması məzmuna təsir edərək məzmunun dəyişməsi və buna görədə onun semantik sahəyə çevrilməsi qeyd olunur.Nəticə olaraq məqalədə göstərilib ki bir cümlədə bir və ya bir neçə neqator və ya neqative konstitutentin reallaşması dilin sintaktik qanunlarından aslıdır və və o özünü dilin funksional –semantik tipologiyasında əks etirir.
Açar Sözlər: *İnkarlıq, Semantik Sahə, Məzmun, Forma*

Features of the Vertical Structure of the Field of Functional-Semantic Negation

Summary: This article devoted to explore the problem of negation,major Features of the vertical structure of the field of functional-semantic negation in modern english.Then It was proceeded to examine a direct relationshib between affirmation and negation and was indicated that there is unbreakble bridge between them that is why they can not exist withot the other.On the one hand İt is inicated that there are numerous elements in semantic – functional field of vertical negation .On the other hand these essential elements were compared and were found out similarities and variaties among them .The dominant and leading role of particle " not" was particulary empahised in the category of negation in modern english.The means of sematic –functional of negation were profoundly explored factual materials and explained comprehensively. İt was also noted that category of negation is both a philosophical category and grammatical ,however its realization alters the content affecting content threfore it becomes semantic field.As a result it was mentioned in article that realization of one or several negators or negative constituents in a sentence are depend on the syntactic laws of language and it reflects common typlology of the functional-semantic field.
Key Words: *Negation, Semantic Field, Content, Form*

Qeyd etməliyik ki, müxtəlif hallarda sahə anlamı konkret fərqləndirici kriteriyalar (meyarlar) onun linqvistik hüdudlarından keçir.

Sahədən yəni semantik sahədən bəhs edərkən M.Adilov yazır: *"XX əsrdə meydana çıxan strukturalizm gənc qrammatistlərin atomizminə qarşı çıxaraq, dilin sistemli şəkildə öyrənilməsi ideyasını irəli atdı. Bu sistemin ayrı-ayrı ünsürləri bir-biri ilə qarşılıqlı şəkildə əlaqədar olub, biri digərini şərtləndirir. Odur ki, leksik-semantik hadisələri bir-birindən ayrılıqda yox, bir-biri ilə əlaqədar öyrənmək məsələsi də irəli sürüldü. Əvvəllər də bir-birindən əlaqəsiz sözlərin yox, məhz semantikaca əlaqədar olan söz qruplarının öyrənilməsi zəruriyyətindən bəhs edilirdi"* (3, s. 34).

Əlbəttə, deyilən fikirlərə söykənərək biz də inkarlıq sahəsinin ingilis dilində özünü necə göstərməsi məsələsini tədqiq etməyi qarşıya məqsəd qoymuşuq.

İnkarlıq sahəsi ifadəsini işlədərkən burada söhbətin sadəcə inkarlıq deyil, həmçini forma və məzmundan getdiyini qeyd etmək lazımdır. İnkarlıq bir tərəfdən fəlsəfi kateqoriyadır, digər tərəfdən isə qrammatik kateqoriyadır, lakin onun reallaşması artıq məzmuna təsir etdiyindən semantik sahəyə çevrilir.

Dildə inkarlıqdan bəhs edərkən Bondarko V.N. yazır ki, bu ümumi dilçiliyin ən vacib məsələlərindəndir, hər şeydən əvvəl ona görə ki, məhz məzmun və forma münasibətləri

* Avrasiya Unisersiteti, ferganehuseynova@yahoo.com.

DOI :10.30546/100981.1.2024.013

planında, daha dəqiq cümlənin strukturu və onun vasitəsilə ifadə olunan fikir (ideya) problemi nəzərdə tutulur (4, s. 3). Müəllif öz fikirlərini davam etdirərək vurğulayır ki, əzəldən inkarlıq məntiq və linqvistikanın formal tədqiqat sahəsi olmuşdur.

İstinad etdiyimiz fikirlərə əsasən biz də məhz ingilis dilində inkarlığın ifadə vasitələri, onun funksional-semantikası məsələsini faktik materiallar əsasında tədqiq etmək üçün bu məqaləni işləyirik.

Germanistikada, həmçinin azərbaycanlı germanistlər içərisində öz dəsti-xətti olan bu sahədə xeyli araşdırmalar aparmış S.Ə.Abdullayev yazır ki, inkarlıq semantikasının ifadəsi üçün bütün dil səviyyələri, habelə səviyyələrarası ifadə əlaqələri iştirak edir – sintaktik, leksik-sintaktik, leksik-morfoloji, leksik-semantik və sözdüzəltmə səviyyələrini təmsil edən rəngarəng indikatorlar toplanır (1, s. 33). Alman dilinin materiallarından bəhs edərkən S.Abdullayev alman dilinin inkarlıq sahəsinin şaquli struktur təşkilində 20 müxtəlif səviyyəni qeyd etmişdir.

İngilis dilində inkarlıqdan bəhs edərkən onun mərkəzində *"not"* inkar hissəciyi, *"no"*sözü və başqa inkar bağlayıcıları, zərfləri durduğunun şahidi oluruq.

İlk növbədə onu vurğulamaq istərdik ki, ingilis dilinin cümlə quruluşuna görə orada inkarlıq müxtəlif vasitələrlə ifadə oluna bilir. İkinci bir cəhət ondan ibarətdir ki, hər bir sözün başqa sözlə birləşmə yaratmaq, yanaşı işlənmək qabiliyyəti fərqlidir.

Məntiqdən bəllidir ki, insan təfəkkürü obyektiv aləmin inikasıdır, dil isə özlüyündə məntiqi mühakiməni ifadə edir və bütün hallarda həm təsdiqi, həm də inkarı mühakimə obyektiv reallıqdan, gündəlik həyatdan (təfəkkürdən) təcrid etmək olmaz. Obyektiv reallıqda onu da başa düşmək lazımdır ki, inkarlıq olmadan inkişaf mümkün deyil, yəni fəlsəfənin üç qanununda biri inkarı-inkar qanunudur, digəri isə əksliklərin vəhdəti və mübarizəsi qanunu, üçüncüsü isə kəmiyyət dəyişməsinin keyfiyyət dəyişməsinə keçməsidir. Bu dialektikanın qanunu olmaqla bərabər obyektiv reallıqdır və bu reallığın çövhərində (nüvəsində) inkarlıq durur.

Bu deyilənlərə görə də təsdiqi inkarsız, inkarı təsdiqsiz əlaqəsiz təsəvvür etmək olmaz. İnkarlığın üzə çıxarılmasında onun hər hansı bir təsdiq anlayışı ilə qarşılışdırılması, müqayisə edilib tutuşdurulması olduqca mühüm rola malikdir, çünki həmin fikirlərin ifadə etdiyi məfhumlar birbaşa anlama gətirib çıxarır və həmin andaca ötürülən məzmun planı qarşılaşdırılır. Əlbəttə, bu zaman həm koqnisiya, həm də fon biliklər xüsusi əhəmiyyətli rol oynayır.

Məsələn, eyni strukturlu iki cümlə təqdim edək.

1. It is hot today. - Bu gün istidir.

2. It is not hot today. - Bu gün isti deyil.

3. It is cold today. - Bu gün soyuqdur.

Nümunə gətirdiyimiz birinci və üçüncü cümlələr öz strukturuna görə təsdiq cümləsidir, ikinci cümlə isə inkar cümləsidir, lakin məzmun baxımından ikinci və üçüncü cümlələr inkarlıq ifadə edir, yəni havanın obyektiv olaraq isti olmamasını ifadə edir, lakin onlardan ikinci cümlə sadəcə inkarlıq ifadə etsədə (yəni *"hot"* sözünü inkar edir) üçüncü cümlədə obyektiv gerçəkliyin tam inikasını görmək mümkündür.

Funksional-semantik inkarlıq sahəsinin ingilis dilində şaquli istiqamətindən bəhs edərkən qeyd etdiyimiz kimi sahə strukturunun müxtəlif səviyyələri və intensivlik ifadə edən vasitələri vardır. *"Not"* inkar hissəciyi yalnız cümlədə predikativdən əvvəl işlədilərək inkarlıq ifadə etmir, həmçinin feil, sifət və isimdən əvvəl gəlməklə də cümlədə nəyinsə də inkar edir.

Not knowing who was that jentleman he asked him to leave the hall. - Onun kim olduğunu bilmədən o ondan zalı tərk etməyi xahiş etdi.

Give me that red book, not green book. - Mənə o qırmızı kitabı verin, yaşılı yox (deyil). Mənə yaşılı deyil o qırmızı kitabı verin.

There was Ahmad in that Party, not Vali. - O ziyafətdə Vəli deyil, Əhməd iştirak edirdi.

Digər bir halda inkarlıq ifadə edən, yəni tərkibində birinci komponenti *"no"* olan sözlər vasitəsilə inkarlıq ifadə olunur. Onlar arasında *nobody, noone, nowhere, nothing* kimi sözlər vardır ki, həmin söz qəti inkarlıq bildirir və ifadə olunan fikri intensivləşdirir.

And Clyde, as he followed Mr. Whiqqam, was thinking about a wonderful place, Mr. Gilbert Griffiths enjoyed. No doubt he came and went as he chose – arrived at the office late, departed early (Th.Dreiser).

Bu kontekstdə sadəcə *"no"* sözü *"doubt"* sözündən əvvəl gəlməklə qəti tam inkarlıq ifadə edir, lakin cümlənin sonunda *"came and went"* - "gəldi və getdi" yenidən həmin adamın seçim qarşısında qalması, yəni *"arrived at the office late"* - ofisə tez çatdı və yaxud *"departed early"* - erkən ayrıldı və sonluğun belə bitməsi inkarlığın heç də bütün cümləyə deyil şübhəsiz onun gəlib-getməsinə olan münasibətdir, eləcə də həmin ifadə altında inkar-təsdiq anlamı ifadə olunur.

Bəzən cümlənin tərkibində olan feili inkara çevirmədən fikri inkar etmək mümkündür və burada həmin inkarlıq intensivləşir.

All of us know the way to the village.

None of us know the way to the village.

Bizlərdən heç kəs kəndə gedən yolu tanımır (bilmir).

Cümlənin tərcüməsindən göründüyü kimi ingilis dilində olan *"none of us"* Azərbaycan dilində olan "heç kəs" - uyğun gəlir və bu qəbildən olan sözlər qəti inkarlığı ifadə edir. İngilis dilində bunlara aid *"none of them", "never", "nowhere", "nothing"* sözləri aid edə bilərik.

There is nobody in the hall.

Nothing can help us in such a difficult situation.

I want nothing from them.

None of his friends came to see him when he was in prison.

Belə inkarlıqdan bəhs edərkən O.Musayev yazır ki, müasir ingilis dilinin inkarlıq bildirən əvəzliklərinin ünsiyyət baxımından Azərbaycan dilinə xas olan inkarlıq əvəzliklərindən başlıca fərqli cəhəti ondan ibarətdir ki, ingilis dilinə xas olan inkarlıq əvəzlikləri inkarlığı təkbaşına ifadə edir, yəni inkarlıq əvəzliyi işlədilən cümlənin xəbəri təsdiq formada olur. Müasir Azərbaycan dilində isə inkarlıq bildirmək üçün cümlədə əksərən həm inkarlıq əvəzliyi işlədilir, həm də xəbər inkarda olur.

Məsələn, "Mən heç kimi/heç kəsi görmürəm" cümləsini ingilislər belə deyir. *"I see nobody"* Bu cümlənin Azərbaycan dilinə hərfi tərxüməsi belədir – Mən heç kimi/heç kəsi görürəm (2, s. 207).

Təbii olaraq bəllidir ki, ingilis dilində cümlədə yalnız bir inkarlıq mümkündür və məhz buna görə də ingilis dilində olan inkarlığı digər dillərə (məsələn, Azərbaycan, rus dillərində) çevirəndə diqqətli olmaq lazımdır.

I received no letters last year. - Keçən il mən heç bir məktub almadım.

No one (nobody) has asked me about that accident. - Bu hadisə haqqında məndən heç kim soruşmayıb.

Nothing has happened him today. - Ona bu gün heç nə olmayıb (Onunla heç nə baş verməyib).

I have never seen him before. - Əvvəllər mən heç zaman onu görməmişəm.

Bu qeyd etdiklərimizlə yanaşı vurğulamaq istərdik ki, ingilis dilində inkarlıq əvəzliyi, zərfliyi və yaxud bağlayıcısı ilə olan cümlələri başqa formada da inkar cümləsi kimi işlətmək olar, başqa sözlə inkarlığı ifadə etmək olar.

I received no books last two weeks.

I did not received any books last two weeks.

Sonuncu iki həftəni mən heç bir kitab almadım.
We found nobody (no one) at the college two days ago.
We didn't find anybody at the college two days ago.
İki gün əvvəl biz kolecdə heç kəsi tapmadıq.
I have read nothing about Th.Dreiser's "Titan".
I have not read anything about Th.Dreiser's "Titan".
T.Drayzerin "Titan" əsəri haqqında heç nə oxumamışam.
We went nowhere after that accident.
We didn't go anywhere after that accident.
O hadisədən sonra biz heç yerə getmədik.

Nümunə gətirdiyimiz cümlələrdə göründüyü kimi ingilis dilində yalnız bir inkarlıq vardır, lakin Azərbaycan dilində biz mütləq cümlənin qarşılığını verdikdə həm inkar əvəzliyi, həm də feili inkarda verməliyik, əks halda ünsiyyət baş tutması fikir dolaşıq olar, cümlə anlaşılmaz. Eyni zamanda inkar cümlələrini iki formada verməyimizə baxmayaraq onların semantik çalarlıqları da fərqlidir. Bütün hallarda birinci variantda cümlələr qəti inkarlıq bildirir və bunlar leksik inkarlardır, ikinci halda bütün cümlələrdə qrammatik inkarlıq ifadə olunur, baxmayaraq Azərbaycan dilinə çevrilərkən həmin cümlələrin tərcüməsi eyni olur və bir cəhəti də bir daha vurğulamaq istərdik ki, birinci variant cümlələrdə qəti inkarlıq mövcuddur və onu həmin anlamda başqa formada ifadə etmək mümkün deyildir.

İngilis dilində inkarlıq sahəsinə daxil olan prefikslər vardır ki, onlar da öz növbəsində ötürülən informasiyanı inkar edə bilirlər. Hətta ingilis dilində elə prefikslər vardır ki, onların bəziləri həm inkarlıq bildirir, həm də təsdiqlik (əlbəttə onlar mənşəcə müxtəlif dillərdən alınma prefikslərdir).

The king disinherited the elder son. - Kral böyükoğlunu varislikdən məhrum etdi.
It was dissyllable word. - Bu ikihecalı söz idi.
The teacher dismissed the class 10 minutes early. - Müəllim sinfi (şagirdləri) 10 dəqiqə tez buraxdı.

Cümlə nümunələrinin əvvəlki cümlələr kimi xəbər kimi dəyişdirib fikri ötürmək mümkün deyildir ona görə ki, bəzən inkarlıq implisit, bəzən isə eksplisit olur.

Vurğulamaq istərdik ki, ingilis dilində olan inkar prefiksləri cümlədə haqqında bəhs olunan müəyyən bir əşya, kəmiyyət, keyfiyyət və hadisəni inkar edərək özünəməxsus inkarlıq mikrosahəsi yaradaraq mətnlərin formalaşmasında da geniş iştirak edir. Burada təbii olaraq iki bir-birinə zidd olan qütb, anlayış, hərəkət qarşı-qarşıya qoyulur. Əlbəttə birinci qütb ikinci tərəfindən inkar edilir, ikinci qütbdə isə tamamilə ona əks, zidd, qarşı olan başqa bir anlayış verilir. Başqa bir cəhət də ola bilər ki, nisbətən daha geniş bir anlayış, fərqli məhdud anlayışla, eləcə də hansısa ümumi anlayışlar xüsusi anlayışlarla qarşılaşdırılır.

Təbii olaraq dilçilik ədəbiyyatlarından bəlli olduğu kimi belə halda sözün mənasının, semantikasının müəyyən dərəcədə daralmasına, məhdudlaşmasına, həmçinin öz həqiqi mənasından uzaqlaşmasına səbəb olur. Bəzi hallarda inkar prefikslərinin işlənmə məqamından asılı olaraq inkarlıq mikrosahəsini ifadə edən prefikslərin inkar çalarlığı zəifləyə bilir və bu zaman təsdiqdə olan variantı, inkar variantı ilə müqayisə edilərkən xeyli zəif görünür.

Biz bu qənaətə ona görə gəlmişik ki, S.Abdullayev sinonimlərdən bəhs edərkən başqa dilçilərin yanaşmasından fərqli olaraq yeni bir sanki konsepisyanı irəli sürür, istinad uzun olsa da onu verməyi özümüzə borc bilirik, bir halda ki, inkar variantında nələrsə zəifləyir elə buna görə də S.Abdullayevdən sitat verməyimiz məntiqidir. *"Sinonim, eyni və yaxın mənalılıq ehtiyatları yalnız bütövləşdirməyə, əhatəliliyə, tamlaşdırmaya, digər tərəfdən də detallaşdırma və dəqiqləşdirməyə xidmət etmir, həm də düzgün və sahmanlı istifadə olunmadıqda lüzumsuz olaraq anlayışın, obyektin xırdalanmasına, qlobal qavrayış prosesində bütövlük təəssüratının azalmasına, zəifləməsinə və ya tamamilə itirilməsinə səbəb*

olur. Bu onunla bağlıdır ki, sinonimlər dildə ən müxtəlif nominativ və üslubi-praqmatik funksiyaları yerinə yetirir" [2, s. 175].

Dildə olan sinonimlərdən bəhs edərkən müəllif bir qədər irəli gedərək yazır ki, istər bütöv söz sahəsi daxilində, istərsə də eyni-ortaq sememə (leksik-semantik varianta) malik olan sinonim cərgələrində semantik assosiativ əlaqələnmə, qrammatik-üslubi şüalanma müxtəlif yayılanlıq məsafələri qət edir. Əlbəttə tematik qrup, bütöv leksik-semantik sahə, qavrayış blokları, təsəvvür dairələri çərçivəsində yayılır… xüsusilə dəqiq antonimlərə, bir mənalı əks-müqabillərə malik olan sözlərdə yayılanlıq, qeyri-səlistlik həndəsi silsilə ilə artır, bütöv bir-birinə ilk baxışda əks sahələr üz-üzə gəlir [2, s. 178].

Dilçilik ədəbiyyatlarınfda antonimliyi təyin edərkən qəbul olunmuş ümumi fikir vardır, antonimlər əkslik ifadə edən, lakin məfhumi semantika (məna) baxımından bir-birilə əlaqəsi olan sözlərdir, eyni ilə inkarlıq bildirən prefikslər əlavə edildikdən sonra yaranan sözlər də ilkin forma ilə əlaqəlidir (ən azı məfhumi baxımından).

Tədqiqatlara əsasən deyə bilərik ki, prefikslər və ya yarımprefikslər inkarlığa məxsus bir sıra xüsusiyyətləri özündə ehtiva edir və həmin inkar prefikslər bir tərəfdən öz məhsuldarlığı, işlənmə tezliyi eləcə də mənşəyinə görə fərqləndiyi kimi əks mənası söz və ifadələrin yaranmasında öz aktivliyi ilə seçilir. İnkarlıq bildirən affikslərin (prefikslərin yaratdığı məna çalarlıqlarını müxtəlif tədqiqatçılar tədqiq etmişlər, lakin onların məna (semantik) çalarlıqlarından bəhs edərkən S.Abdullayevin gəldiyi qənaətlərlə razılaşmamaq mümkün deyildir. Müəllif özünəməxsus şəkildə həmin məsələni belə şərh edir: *"İnkar görümün vasitəli yolla təsdiq prizmasından təqdim edilməsi qrammatik inkarlıq tipinə nisbətən informativ cəhətdən daha bütün xarakter daşıyır, semantik baxımdan daha tutumlu olur"* [1, s. 219].

Təbii olaraq inkarlıq ifadə edən prefikslər yuxarıda vurğuladığımız kimi antonimlik yarada bilir, lakin bu antonimlik heç də bir-birinə zidd olan iki məfhumu adlandıran sözlər arasında olan antonimlik deyildir, çünki prefikslərlə yaranan antonimlər ən azı semantik çalarlığına görə sadəcə nəyisə inkar edib antonimlik yaratdığı halda qeyd etdiyimiz antonimlikdə tam əksinə olan, zidd olan məfhumlar obyektlər, hadisələr ifadə olunur və hər bir prefiksin özünəməxsus müxtəlif sözlərə birləşmək qabiliyyəti mövcuddur və heç də bütün prefiksləri hər hansı bir sözə birləşdirmək olmaz. Bu qeydlərimizi mətn parçaları vasitəsilə əyani şəkildə şərh etməyə çalışaq.

*To those who have **never** wavered in conscience, the predicament of the individuals whose mind is less strongly constituted and who trembles in the balance between duty and desire is scarcely appreciable, unless graphically portrayed. Those who have **never** heard that solemn voice of the ghostly clock which ticks with awful distinctness, "thou shalt", "thoushalt not", "thou shalt", "thou shalt not" are in no position to judge. **Not** alone in sensitive, highly organised natures in such a mental conflict possible. The dullest specimen of humanity, when drawn by desire toward evil, is **recalled** by a sense of right, which is proportionate in power and strength to his evil tendency. We must remember that it may **not** be a knowledge of right, for **no** knowledge of right is predicated of the animals instinctive **recoil** at evil. Men are still led by instinct before they are regulated by knowledge. It is instinct which recalls the criminal – it is instinct (where highly organised reasoning is absent) which gives the criminal his feeling of danger, his fear of wrong [6, s. 297]*.

Öz hərəkətlərində heç bir zaman tərəddüd etməyən adamlar üçün vəzifə ilə arzu arasında titrəyərək vurnuxan daha zəif adamların əzablarını anlamaq çətindir. Heç bir zaman vahiməli saatların dəhşətli çıqqıltıda *"Elə!", "Eləmə!", "Elə!", "Eləmə!"* deyə vurduğunu eşitməyənlər belə adamları mühakimə edə bilməzlər. Belə daxili mübarizə yalnız həssas və hər şeydən çəkinən adamlarda olmur. İnsan cəmiyyətinin ən qalın dərili nümayəndəsi belə, arzuları onu pis işə sövq etdiyi dəqiqələrdə, vicdanın səsini eşidir və cinayət daha ciddi olduqca bu səs bir o qədər ucadan səslənir. Ancaq bu həmişə hərəkətin pis olduğunu dərk

etməklə izah olunmur, çünki heyvani sövq-təbii olaraq pislikdən çəkinməyə vadar edən heç də bu deyildir. İnsanlar da hər şeydən əvvəl sövq-təbiiyə tabe olur. Sonra isə ağıla əsasən hərəkət edirlər. Cinayətkarı dayandıran, ona təhlükə qarşısında, pis əməl qarşısında qorxu təlqin edən məhz sövq-təbiidir (insan sağlam mühakimə yürüdə bilmədi halda). Bu mətn parçasında bir neçə inkarlıq ifadə edən söz və ifadələr vardır ki, onlar mətnin formalaşmasında fəal iştirak ediblər, lakin burada elə hallar vardır ki, birbaşa inkarlıq sahəsi yaradan söz ifadə kimi qəbul olunub və elə də işlədilir. Burada birinci cümlədə işlədilmiş *"never"* - *"heç bir zaman"* – qarşılaşması, *"thou shalt"* - *"thou shalt not"* - *"Elə-Eləmə!"*; *"thou shalt"* - *"thou shalt not"* - *"Elə-Eləmə"* – qarşılaşmasının təkrarlanması bir tərəfdən inkarlığı intensivləşdirir, digər tərəfdən isə inkarlıq sahəsini şaquli istiqamətdə daha da dərinləşdirir. Biz bunu onunla əlaqədar hesab edirik ki, mətn parçasında sövq-təbiilikdən də bəhs olunur, ancaq orada heç də həmişə sövq-təbiilik deyil hansısa hərəkətin implisit olaraq inkar olunmasından bəhs olunur və nəticədə *"recoil"* sözündə olan *"re"* prefiksi əslində hansısa hərəkətin təkrarlanmasını ifadə etdiyi halda bu mətn parçasında *"re"* özünün məntiqi və orijinal semantikasından xeyli fərqli semantik çalarlığı ifadə edə bilib. Əgər elə olmasaydı həmin *"recoil"* sözü işlədilən cümlə heç də *"Ancaq bu həmişə hərəkətin pis olduğunu dərk etməklə izah olunmur, çünki heyvanı sövq-təbii pislikdən çəkinməyə vadar edən heç də bu deyildir"* belə tərcümə edilməzdi. Burada məsələyə kompleks yanaşılıb və ona görə də həmişə vurğuladığımız məsələni bir daha qeyd edirik ki, bütün hallarda sözün, ifadənin, cümlənin semantikası birbaşa kontekst daxilindjə araşdırılmalıdır və biz də həmişə bu prinsipə sadiqik.

Müəlliflər qeyd edirlər ki, hər bir mətnin arxasında sistem dayanır, mətn sistemə istinad edir. Təhlil yolu ilə mətni məhdud miqdarda ünsürlərə parçalamaq, bölmək olar ki, bu ünsürlər müxtəlif birləşmələr, kombinasiyalar tərzində daim təkrar edilə bilər. Funksiyaların bənzərliyi əlamətinə əsasən aparılan təhlil nəticəsində ünsürlər siniflər şəklində birləşir və bununla da sistem əmələ gətirir. Sistemin varlığı mətnin varlığı üçün (əksinə yox) etibarlı təminatdır. Ardıcıllıq mətndə təzahür etmədən də mövcud ola bilər. Beləliklə, sistemlə mətn arasında olan funksiya tabelilik (determinativlik) funksiyasıdır. Buradja sistem sabit kəmiyyətdir, mətn isə dəyişən kəmiyyətdir, yəni mətnin varlığı üçün zəruri deyildir. Sistemə əsaslanmaqla dildə hələ işlənməyən və ya müəyyənləşdirilməyən ünsürləri müəyyənləşdirmək bu ünsürlərin gələcək dəyişmələrini əvvəlcədən söyləmək olar [6, s. 1340.

Bizə elə gəlir ki, sistem və mətn kontekstindən bəhs edən bu tədqiqatçıların fikirləri ilə səsləşən, mətn daxilində yuxarıda göstərdiyimiz şərhlər tamamilə uyğun gəlir, çünki orada olan məzmun planı birbaşa struktur çərçivəsində tamamilə reallaşıb.

To the untravelled, territory other than their own familiar heath is invariably fascinating. Next to love, it is the one thing which solaces and delights. Things new are too important to be neglected, and mind, which is a mere reflection of sensory impressions, succumbs to the flood of objects. Thus lovers are forgotten, sorrows laid ***aside****, death hidden from view. There is a world of accumulated feeling back of the trite dramatic expression – "I am going away" [6, s. 313].*

Heç bir zaman səyahətə çıxmamış adama vətənindən azacıq da olsa fərqlənən hər bir yeni yer çox maraqlı görünür. Məhəbbəti nəzərə almasaq, səyahət insana hər şeydən artıq sevinc və təsəlli verir. Nədənsə bütün yeni şeylər bizə çox əhəmiyyətli görünür və əslində yalnız hisslərimizin hadisələri, nə dərəcədə qavradığını əks etdirən ağız təəssürat axını qarşısında arxaya keçir. Səyahət zamanı sevgilini yaddan çıxarmaq kədəri dağıtmaq, ölüm kabusunu özündən kənar etmək olar. "Mən səfərə çıxıram" kimi sadə ifadədə özünə çıxış tapmayan bir aləm hissiyyat gizlənmişdir.

Mətn parçasının şərhinə keçməzdən əvvəl mətnin başlanğıc cümləsində olan *"to the untravelled"* - *"səyahətə çıxmayan"* qarşılaşması ilə *There is a world of accumulated feeling back of the trite dramatic expression "I am going away"* - *"Mən səfərə çıxıram"* kimi sadə

ifadədə *"özünə çıxış tapmayan bir aləm hissiyyat gizlənmişdir"* qarşılaşmasına diqqət yetirəndə həm mətnin formalaşmasında müəyyən struktur həmçinin məzmun və birbaş implisit olaraq bir çox mətləblərin gizlənməsinə işarə vardır və eləcə də bəzi hərəkətlərin inkarlıq mikrosahəsində daha dərində şaquli istiqamətdə olması bariz şəkildə hiss olunur.

İngilis dilində inkarlıq sahəsinin şaquli strukturunda əlbəttə başqa elementlər də vardır, lakin bir məqalənin tərkibində onların hamısını heç də əhatə etmək mümkün deyildir, növbəti yazılarda və yaxud dissertasiyanın yazılışında onları nəzərə alacağıq.

ƏDƏBİYYAT

1. Abdullayev S.Ə. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. B., 1998, 279 s.
2. Abdullayev S.Ə. Qeyri-səlis dilçilərin təcrübəsi. B., 2013, 595 s.
3. Musayev O.İ. Müasir Azərbaycan və ingilis dillərinin morfologiyası. Ankara, 2018, 460 s.
4. Verdiyeva Z.N., Ağayeva F.M., Adilov M.İ. Dilçilik problemləri. B., 1982, 325 s.
5. Бондаренко В.Н. Отрицание как логико-грамматическая категория. М., 1983, 209 с.
6. Dreiser Th. Sister Carrie. M., 1968, 593 p.